

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 183 (23.094)

27 sentyabr 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Bakıda cüdo üzrə dünya çempionatı davam edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqa və Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer sentyabrın 26-da Milli Gimnastika Arenasında keçirilən yarışları izləyiblər.

Çempionatın yeddinci günündə də yarışlar gərgin idman mübarizəsi şəraitində keçib. Cüdoçularımızdan yalnız 100 kiloqramdan yuxarı çəki dərəcəsində Uşanqi Kokauri finala qədər addımlaya bilib. Uşanqi Kokauri belaruslu Vladislav Tsiarpitskiyə, Polşa idmançısı Masiey Sarnackiyə, çexiyalı Lukas Krpalekə və özbəkistanlı Bekmurod Oltıboevə qalib gələrək finala yüksəlib.

Qeyd edək ki, 125 ölkənin iştirak etdiyi cüdo üzrə dünya çempionatında 460 kişi və 298 qadın idmançı mübarizə aparır.

* * *

Azərbaycanın "Azerspace-2" peyki sentyabrın 26-da Fransa Qvianasında yerləşən Kuru kosmodromundan orbitə buraxılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu münasibətlə xalqımızı təbrik edib.




## Sənaye məhsulu istehsalı ümumi daxili məhsulda liderliyini qoruyur



*Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib.*

Ötən dövrdə sahibkarlığın inkişaf etdirilməsinə göstərilən dövlət qayğısı nəticəsində istehsal müəssisələrinin sayı artıb, yerli məhsulların növ və çeşidinin həcmi yüksələn xətt üzrə inkişaf edib. Bu da, öz növbəsində, ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmini artırıb. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin ilin ilk 8 ayının sosial-iqtisadi yekunlarına dair açıqladığı hesabatda qeyd olunur ki, muxtar respublikada 2018-ci ilin yanvar-avqust aylarında 1 milyard 757 milyon 595 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi isə 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artaraq 3872 manatı ötüb.

Qeyd edək ki, muxtar respublikanın ümumi daxili məhsul istehsalında sənaye məhsulları mühüm paya malikdir. Çünki ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə regionların tarazlı inkişafına, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Ona görə ki, enerji və ərzaq təhlükəsizliyi ilə bərabər, sənaye məhsulu istehsalı da ölkənin iqtisadi təhlükəsizliyinin əsas şərtlərindən biridir. Bunun üçün muxtar respublikamızda mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Bu sahəyə göstərilən dövlət qayğısı sənayenin inkişafına lazımi şərait yaradıb. Nəticədə, muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişafına yönəlmiş kompleks tədbirlər bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olub. Əvvəlki dövrlərdə olduğu kimi, 2018-ci ilin ötən dövründə də sənaye məhsulları istehsalının ümumi daxili məhsul istehsalında liderliyini müşahidə edirik. Belə ki, statistikaya görə, ilin ilk 8 ayında muxtar respublikada sənaye üzrə 726 milyon 450 min manat dəyərində məhsul istehsal edilib ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur.

Son illər muxtar respublikamızda həyatın bütün sahələrində genişmiqyaslı quruculuq işləri görülür, insanların firavan yaşayışı, səmərəli iş fəaliyyəti təmin olunur.

## Quruculuq, abadlıq tədbirləri günü-gündən vüsət alır



Tarixi keçmişimizə işıq salan binaların yenidən qurulması da mühüm əhəmiyyətli məsələ kimi diqqətdə saxlanılır. Cari ilin iyun ayının əvvəllərindən etibarən Naxçıvan şəhərinin Atatürk küçəsindəki 6 nömrəli binada da yenidənqurma işləri aparılır. Görülən işlərdə binanın tarixi görkəminin və memarlıq quruluşunun saxlanılmasına xüsusi diqqət yetirilir. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçılarının çalışdığı obyektdə texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. İş icraçısı Qabil Yusifovdan aldığımız məlumata görə, hazırda binada söküntü işləri yekunlaşıb, daxildə arakəsmələr hörülür, fasad hissədə isə beton-bərkitmə işləri aparılır.

Qeyd edək ki, tikinti işləri başa çatdıqdan sonra binada Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti və Cəmşid Naxçıvanskinin ev-muzeyi yerləşəcək. Binanın ətrafında da abadlıq işləri aparılacaq, yeni park salınacaq. Parkda Naxçıvan Muxtar Respublikasının turizm marşrutlarının xəritəsini və tarixi abidələrinin görüntülərini əks etdirən stendlər qoyulacaq.

Doğma Naxçıvanımızda aparılan uğurlu siyasətin bəhrələri günü-gündən özünü daha qabarıq şəkildə büruzə verir. Görülən işlər isə birmənalı olaraq bu yurdun insanlarının rahatlığına, firavanlığına, parlaq gələcəyinə hesablanıb. Əminliklə demək olar ki, gələcək illərdə Oğuz yurdu nəinki Avropa məkanında, hətta dünya miqyasında özünəməxsusluğu ilə seçilən diyara çevriləcək.

**Xəbərlər şöbəsi**

## Torpaqlardan səmərəli istifadə sahəsində qarşıya qoyulmuş vəzifələr uğurla icra olunur

*Muxtar respublikamızda əhalinin əsas qida məhsullarına olan tələbatının fasiləsiz və dayanıqlı şəkildə yerli istehsal hesabına ödənilməsini təmin etmək üçün ardıcıl tədbirlər görülür. Həyata keçirilən işlər aqrar istehsalın inkişafında yeni mərhələ olmaqla yanaşı, torpaqdan düzgün və səmərəli istifadəni də günün tələbinə çevirib.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada əkinəyararlı torpaqlardan səmərəli istifadə edilməsi, bu məsələyə dövlət nəzarətinin gücləndirilməsi barədə tapşırıqlar verib, aid mərkəzi və yerli icra hakimiyyəti orqanları qarşısında konkret vəzifələr müəyyənləşdirərək deyib: ***"Bu gün torpaqlardan səmərəli istifadə qarşıda duran əsas vəzifələrdəndir. Əkinəyararlı torpaq sahələrinin məhdudluğu nəzərə alınaraq əkinçiliyin inkişafında intensiv amillərə üstünlük verilməlidir. Kənd təsərrüfatına yararlı torpaqlardan digər məqsədlər üçün istifadənin qarşısı alınmalı, onların əkin dövriyyəsinə cəlb olunması istiqamətində tədbirlər görülməlidir".***

Verilmiş tapşırıqların və qarşıya qoyulmuş vəzifələrin icrası məqsədilə kənd təsərrüfatına yararlı torpaqların kateqoriyalar üzrə səmərəli istifadə istiqamətlərinin müəyyənləşdirilməsi, əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsi, eroziya və şoranlaşmaya məruz qalmış torpaq sahələrinin dəqiqləşdirilməsi və xəritələşdirilməsi, əkinəyararlı torpaqlardan mövcud istifadə vəziyyətinə dair monitorinqlərin aparılması Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılır.

Şərur, Sədərək, Culfa, Ordubad və Şahbuz rayonlarının bütün bələdiyyələri üzrə torpaq islahatı zamanı yaşayış məntəqələrinin perspektiv inkişafı üçün saxlanılmış yararlı torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsi məqsədilə həmin ərazilərdə müvafiq ölçmə işləri aparılıb və xəritələşdirilib. Şərur rayonu üzrə 57,7, Sədərək rayonu üzrə 46,2, Culfa rayonu üzrə 167,5, Ordubad rayonu üzrə 21,8, Şahbuz rayonu üzrə isə 43,8 hektar əkinəyararlı torpaq sahəsi əkin dövriyyəsinə cəlb edilib.

Şərur, Ordubad, Culfa, Babək, Kəngərli, Sədərək rayonlarının və Naxçıvan şəhərinin ərazisində olan eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqlar müəyyən edilərək xəritələşdirilib, həmin ərazilərdə meliorasiya tədbirlərinin həyata keçirilməsi məqsədilə hazırlanmış materiallar aid orqanlara göndərilib.

Torpaqların pasportlaşdırılması ilə əlaqədar bütün rayonlar üzrə kəmiyyətcə uçotu dəqiqləşdirilib, kameral şəraitdə keyfiyyət göstəricilərini əks etdirən xəritələrin hazırlanmasına başlanılıb.

Naxçıvan Muxtar Respublikasında nümunəvi fermer təsərrüfatlarının yaradılması məqsədilə ayrılmış torpaq sahələrində komitənin mütəxəssisləri tərəfindən topoqrafik planaalma işləri aparılıb, torpaq sahələrinin eksplikasiyası tərtib edilib və hazırlanmış xəritə materialları aid orqanlara göndərilib.

Torpaq sahələrinin sel və daşqınlardan qorunması, belə təhlükəsi olan ərazilərdə meşəbərpa tədbirlərinin aparılması, tezböyüyən ağac və kol cinslərindən ibarət meşə zolaqlarının salınması üçün bu cür ərazilər seçilərək xəritələşdirilib. Naxçıvan şəhəri və rayon inzibati ərazi vahidlərinin mərkəzlərində yaşıllıq ərazilərinin (ağac, kol, gül-çiçək və ot bitkiləri ilə əhatə olunan torpaq sahələrin) xəritələri hazırlanaraq aid orqanlara göndərilib və komitənin elektron bazasına yığılıb.

Komitənin mütəxəssisləri tərəfindən muxtar respublikanın rayonlarında və Naxçıvan şəhərində dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlardan istifadə vəziyyətinə dair vaxtaşırı monitorinqlər aparılıb. 2018-ci ilin ötən dövrü ərzində aparılan monitorinqlər zamanı muxtar respublika üzrə torpaqlardan qanunsuz istifadə ilə bağlı 84 fakt aşkar edilib. Həmin qanun pozuntuları qanunvericiliyin tələbinə uyğun aradan qaldırılıb. Ordubad rayonu üzrə 23 faktdan 18-i, Kəngərli rayonunda torpaqlardan qanunsuz istifadə ilə bağlı 11 fakt aradan qaldırılıb, vətəndaşlara xəbərdarlıq olunub.

Torpağın münbit qatının korlanmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq iki fiziki şəxs barəsində inzibati protokol tərtib edilib.

Cari ilin ötən dövrü ərzində Şərur rayonunun Dəmirçi, Maxta, Şəhriyar, Qarxun, Tumaslı, Vərməziyar, İbadulla və Ərəbyengicə, Babək rayonunun Yarımca, Cəhri, Kalbaoruc Dizə, Məmmədrza Dizə və Qaraqala, Şahbuz rayonunun Daylaqlı, Kiçikoba, Ayrınc, Badamlı və Kolanı, Culfa rayonunun Əlincə, Xoşkeşin, Bənəniyar və Xanəgah, Ordubad rayonunun Aşağı və Yuxarı Əylis və Dəstə bələdiyyələrinin əkin sahələrinin mövcud vəziyyətinin öyrənilməsi məqsədilə təqdim olunan məlumatlar əsasında həmin kəndlərin torpaqlarının qida maddələri ilə təmin olunma kartoqramları hazırlanaraq müvafiq bələdiyyələrə təqdim edilib.

Əkin atlaslarına uyğun əkin aparılması və torpaqlardan səmərəli istifadə edilməsi üçün torpaq mülkiyyətçiləri, icarəçiləri və istifadəçiləri arasında maarifləndirmə və izahat işləri davam etdirilib. Bu məqsədlə 2018-ci ilin ötən dövrü ərzində muxtar respublikanın Şərur, Ordubad, Culfa, Babək və Şahbuz rayonlarında yerli icra orqanları, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri ilə görüşlər keçirilib.

Hazırda torpaq mülkiyyətçiləri, icarəçiləri və istifadəçiləri payız əkininə hazırlaşır. Torpaqların münbitliyinin qorunması, torpaq itkisinə yol verilməməsi, torpaq ehtiyatlarından düzgün və səmərəli istifadə edilməsi payız əkini mövsümündə də diqqətdə saxlanılacaq.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixli Sərəncamına əsasən hər il sentyabrın 27-si ölkəmizdə "Turizm İşçiləri Günü" peşə bayramı kimi qeyd olunur.*



*27 sentyabr Turizm İşçiləri Günüdür*

# Naxçıvan zəngin turizm potensialına malikdir



Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən Azərbaycanda turizmin inkişafı üçün geniş imkanlar vardır. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə bu sahənin inkişafını diqqətdə saxlamışdır. Ötən əsrin 70-ci illərində Azərbaycanda turizm təşkilatları və ekskursiya bazalarının geniş şəbəkəsi yaradılmış, müasir mehmanxanalar, ictimai əyləncə obyektləri inşa olunmuşdur. Müstəqillik illərində də ulu öndər bu sahənin inkişafını diqqətdə saxlamış, dövlət turizm siyasətinin tənzimlənməsi sahəsində mühüm hüquqi baza yaradılmışdır.

***"Azərbaycan zəngin ölkədir, turizm inkişafı üçün gözəl yerlər var və biz bu imkanlardan istifadə etməliyik"***, – deyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev turizmin inkişafını ölkə iqtisadiyyatının vacib sahələrindən biri kimi daim diqqət mərkəzində saxlayır. Son illər ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması istiqamətində, habelə turizmin



müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Artıq Azərbaycanın bütün bölgələrində yeni turizm obyektləri, yay-qış turizm kompleksləri, mehmanxanalar inşa olunmuş, mədəni-tarixi qoruqlar yaradılmışdır. Digər bir tərəfdən multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanda qonaqpərvərlik və tolerantlıq ənənələri hər zaman ölkəmizə gələn turistlərin diqqətini cəlb edir. Azərbaycan son illər bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bu tədbirlər beynəlxalq aləmdə ölkəmizin artan nüfuzunun real göstəricisi olmaqla yanaşı, həm də respublikamızın müasir inkişafını, təbii gözəlliklərini, xalqımızın qonaqpərvərliyini, tolerantlığını, qədim mədəniyyətini, tarixini təbliğ etmək və turizm potensialını artırmaq baxımından da əhəmiyyətli olmuşdur.

Naxçıvan Muxtar Respublikasının da geniş turizm potensialı vardır. Muxtar respublikamızın rəngarəng landşaftı, fauna və florası, mineral bulaqları, müalicə mərkəzləri, qədim tarixi, mədəniyyət abidələri, mövcud sabitlik, ekoloji cəhətdən təmiz qida məhsulları və müasir infrastruktura malik olan yaşayış məntəqələri burada turizmin bir çox növünün inkişafına zəmin yaradır.

200-dən çox mineral su bulağı, 400-ə qədər böyük və kiçik çayı olan Naxçıvan Muxtar Respublikasında Azərbaycanın nadir fauna və florası məskunlaşmışdır. Ərazidə olan flora və faunanın nadir növləri Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş və xüsusi mühafizəyə alınmışdır. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət təbiət yasaqlıqları



hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir. Muxtar respublikanın zəngin təbiəti və onun qorunması sahəsində həyata keçirilən tədbirlər turizmin bir çox növünün inkişafına şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına təkan vermiş, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artmışdır. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınmış, su xətləri çəkilmiş, müasir infrastruktur obyektləri tikilmiş, fasiləsiz təbii qaz, elektrik enerjisi, rabitə xidməti və sürətli internet istifadəyə verilmişdir. Qədim diyarın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanəgah, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd yaşıl turizminin inkişafı üçün geniş imkanlar mövcuddur.

Naxçıvan Muxtar Respublikasının tarix-mədəniyyət abidələri ilə zənginliyi turistləri bu diyara cəlb edən əsas amillərdəndir. Ali Məclis Sədrinin müvafiq sərəncamına uyğun olaraq muxtar respublikada 1200-dən çox tarixi abidə pasportlaşdırılaraq qeydiyyata alınmışdır. 70-ə yaxın tarix və mədəniyyət abidəsi bərpa olunmuşdur. Son illər Möminə xatın türbəsi bərpa edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Yusif Küseyiroğlu və Nuh Peyğəmbərin məzarüstü türbələri, muxtar respublika ərazisindəki buzxanalar, Naxçıvan şəhərindəki "Came" məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Naxçıvanqala, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə və Yengicə kəndindəki Şərq hamamında bərpa işləri aparılmışdır. Hazırda Qazançı körpüsünün bərpası davam etdirilir.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı müşavirənin keçirilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamına əsasən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin



inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması turizmin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Ali Məclis Sədrinin 2018-ci il 23 aprel tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin yaradılması isə bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün ölkələrin əsas gəlir mənbələrindən biri kimi turizmin inkişafı məsələləri xeyli aktuallaşıb. Azərbaycanda bu sahədə kompleks tədbirlər görülmüş, yeni turizm infrastrukturları yaradılmışdır. Naxçıvan Muxtar Respublikasında da bu sahədə bir sıra tədbirlər həyata keçirilmişdir. Hazırda muxtar respublikada tarix-mədəniyyət abidələrinin, zəngin təbiətin, şəfalı suların, təbii müalicə mərkəzlərinin mövcudluğu turizmin inkişafı üçün geniş imkanlar yaratmışdır".***

Bu gün muxtar respublikada 21 mehmanxana və mehmanxanatipli müəssisə, Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincə qalası, Naxçıvan-Ordubad, Naxçıvan-Batabat, Naxçıvan-Gülüstan turizm marşrutları fəaliyyət göstərir. 2013-cü ildə Ağbulaq İstirahət Mərkəzinin istifadəyə verilməsi, bu il Ağbulaq kəndində aparılan abadlıq-quruculuq işləri və təməli qoyulan Ağbulaq Xizək Mərkəzi Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün geniş imkanlar açır. Muxtar respublikada müalicə turizminin inkişafı üçün də lazımi şərait vardır. Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılmışdır. Darıdağ Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Həmçinin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, pirlər, imamzadələr, qədim məscidlər muxtar respublikada dini və ziyarət turizminin, zəngin bitki örtüyü isə herbari turizminin inkişafına hərtərəfli şərait yaradır.



Turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla bağlı olduğu kimi, həm də sabitliklə bağlıdır. Bu iki amilin muxtar respublikamızda mövcudluğu, qədim diyarımızın cinayətsiz region kimi tanınması turistlərin respublikaya gəlməsi üçün daha bir üstünlük yaradır. Naxçıvanın bu illərdə beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi etməsi təcrübəsi də vardır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması, ölkəmizin Gənclər Paytaxtı seçilməsi və 21-23 sentyabr tarixlərində muxtar respublika paytaxtında keçirilən "Avropa günləri" turizm imkanlarımızı nümayiş etdirmək baxımından mühüm əhəmiyyətə malikdir. Bu sahədə görülən işlərin nəticəsidir ki, cari ilin 8 ayında muxtar respublikamıza 243 mindən çox turist gəlmişdir.

Turizm sahəsində kadr hazırlığı mühüm məsələlərdəndir. Muxtar respublikada bu amil diqqətdə saxlanılır. Hazırda Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində Turizm və otelçilik ixtisası üzrə kadr hazırlığı aparılır. Tədris ili ərzində tələbələrlə mütəmadi görüşlər keçirilir, Naxçıvan Muxtar Respublikasında yerləşən muzeylərə, tarixi abidələrə, müalicə mərkəzlərinə və xüsusi qorunan təbiət ərazilərinə ekskursiyalar təşkil edilir, təcrübələr keçirilir, maarifləndirici seminarlar təşkil olunur.

*Muxtar respublikada turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yaradılan şərait qədim diyarın turizm potensialının inkişafı üçün geniş üfüqlər açmaqdadır.*

***Naxçıvan Muxtar Respublikasının***
***Turizm Departamenti***

## Muxtar respublikanın kütləvi informasiya vasitələrinə yeni avadanlıqlar təqdim olunub

*Sentyabrın 26-da Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasına, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə yeni avadanlıqlar təqdim olunub.*

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş kütləvi informasiya orqanlarını da əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mətbuat orqanlarına, teleradiolara olan hərtərəfli qayğısı yeni keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olub. Teleradio və qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilib, yaradıcılıq imkanları artırılıb. Bu sahədə həyata keçirilən tədbirlər 2018-ci ildə də davam etdirilib, Naxçıvan Dövlət Teleradiosuna müasir yayım və çəkiliş avadanlıqları alınıb. Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurasına, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə yeni avadanlıqların təqdim olunması da muxtar respublikanın kütləvi informasiya vasitələrinin yaradıcılıq imkanlarının və maddi-texniki bazalarının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamıdır.





"Şərq qapısı" qəzetinin baş redaktoru Mehriban Sultanova çıxış edərək deyib ki, qəzetə yeni avadanlıqların təqdim olunması, maddi-texniki təchizatın gücləndirilməsi fəaliyyət üçün geniş imkanlar açır. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə edəcək, göstərilən qayğı müqabilində daha səylə çalışacaqdır.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova diqqətə çatdırıb ki, şuraya alınan yeni avadanlıqlar işin günün tələbləri səviyyəsində qurulmasına, teleradio yayımı sahəsində qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, "Arazın səsi" qəzetinin redaktoru Hüseyn Şəkərəliyev, gənc jurnalist Güntac Şahməmmədli, Televiziya və Radio Şurasının əməkdaşı Zilhiccə Abdullayeva muxtar respublikada mətbuat orqanlarının fəaliyyəti üçün yaradılan şəraitdən danışıblar.

Çıxış edənlər muxtar respublikada kütləvi informasiya vasitələrinin fəaliyyətinə yaratdığı hərtərəfli şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq ediblər.

Sonra avadanlıqların texniki göstəriciləri barədə məlumat verilib. Bildirilib ki, yeni alınan kompüterlər, printerlər, yaddaş qurğuları, televizorlar və digər avadanlıqlar ən son texnologiyaya əsaslanır. Saniyədə 12 kadr çəkən "Nikon D5" fotoaparatı qəzetdə foto işinin keyfiyyətinin daha da yaxşılaşdırılmasına imkan verəcəkdir.

**"Şərq qapısı"**

*Bu gün informasiya-kommunikasiya texnologiyaları evimizin belə, ayrılmaz tərkib hissəsinə çevrilib. Dünyanın ən məşhur şirkətlərinin istehsalı olan həmin texnologiyalar müxtəlif informasiyaların, elmi yeniliklərin, statistik göstəricilərin və digər məlumatların əldə olunmasında hamımızın yaxın köməkçisidir. Onu da qeyd edək ki, informasiya-kommunikasiya texnologiyaları bu gün özünün ən müasir inkişaf mərhələsindədir. Onlardan səmərəli istifadə üçün muxtar respublikamızda da geniş imkanlar yaradılıb.*

## Müasir texnologiyaların tətbiqi, keyfiyyətli yayım sosial-rifaha xidmət edir



Bir vaxtlar heç kimin ağlına belə gəlmədiyi texnologiyalar vasitəsilə bu gün dünyanın müxtəlif ölkələrinin televiziya kanallarını evlərimizdə rahatlıqla izləyir, müasir antennalar vasitəsilə mobil telefonlarımızla ən uzaq məsafələrlə əlaqə yarada bilirik. Hər il bu texnologiyaların tətbiqi ilə bağlı muxtar respublikamızda məqsədyönlü tədbirlər həyata keçirilir. Muxtar respublika ərazisinin tamamilə fiber-optik kabellə və internetlə təmin olunması da sübut edir ki, ölkə və dünya miqyasında tətbiq olunan yeniliklərin Naxçıvanda da tətbiq edilməsi diqqət mərkəzində saxlanılır. Bu həm də yeni mütəxəssislərin yetişdirilməsini tələb edir. Muxtar respublikanın ən böyük ali təhsil müəssisəsi olan Naxçıvan Dövlət Universitetində müvafiq ixtisaslar Rabitə və Yeni Texnologiyalar Nazirliyinə hamiliyə verilib. Bu sahə üzrə yetişdirilən mütəxəssislər təcrübə toplamaq məqsədilə başqa ölkələrə göndərilirlər. Yeni texnologiyalar sahəsində dünyanın ən böyük şirkətlərindən biri olan "Huawei" şirkəti ilə əməkdaşlıq yeni müstəvidə davam etdirilir.

Sentyabr ayının 15-də Şərur rayonunun İbadulla kəndində Radio-Televiziya Verici Stansiyasının yeni binada fəaliyyətə başlaması da muxtar respublikada yeni informasiya texnologiyalarının tətbiqi ilə bağlı həyata keçirilən tədbirlərin davamıdır. Stansiyanın istifadəyə verilməsi münasibətilə keçirilən açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov kollektivi təbrik edərək deyib: ***"Muxtar respublikamızda yeni texnologiyaların tətbiqinə üstünlük verilir. Yeni texnologiyalardan istifadə insanların dünyagörüşünün artmasına, həyat səviyyəsinin rahatlanmasına xidmət edir. İbadulla Radio-Televiziya Verici Stansiyasının əvvəlki binası və avadanlıqları müasir tələblərə cavab vermirdi. Lakin bu gün yeni binada ən müasir avadanlıqlar quraşdırılıb, göstərilən xidmətin keyfiyyəti artıb".***

Bu günlərdə həmin stansiyada olduq. Stansiyanın yerləşdiyi ərazidə yaradılmış səliqə-sahman ilk baxışdan diqqətimizi cəlb etdi. Gülkarlıq, yeni əkilmiş meyvə ağacları yaxın vaxtlarda buranı ən gözəl yaşıllıq məkanına çevirəcək. Əraziyə daimi su xəttinin çəkilməsi, vaxtlı-vaxtında suvarılmanı təmin edib.

Burada səmimi bir kollektiv çalışır. Kollektiv üzvlərinin hansı ilə həmsöhbət oldumsa, onlara göstərilən qayğıdan fərəhlə danışdılar, öz işlərinə məsuliyyət hissi ilə yanaşdıqlarını da elə söhbətlərindən hiss etdim. Stansiyanın rəhbəri Vüsal Həsənov bildirdi ki, fəaliyyətimiz dövründə heç vaxt bugünkü kimi müasir şəraitlə təmin olunmamışıq. Ən müasir avadanlıqların quraşdırıldığı bu bina kollektivin məsuliyyətini daha da artırıb. O, stansiyada həyata keçirilmiş yeni işlər barədə danışaraq bildirdi ki, iki mərtəbədən ibarət binada əsas və ehtiyat magistral kabel xətlərinin və ərazi üzrə 16 avtomat telefon stansiyasının fiber-optik sonlandırma avadanlıqları, paylayıcı və çevirici qurğular, Türkiyə-Naxçıvan arası aralıq gücləndirici və radiorele linklərinin modemləri quraşdırılıb. Televiziya və radio kanallarının ərazidə rəqəmsal formatda kəsintisiz və keyfiyyətli yayımına imkan verən həmin avadanlıqlar yüksək iş əmsalına malikdir.

Öyrəndik ki, efirə nəzarət otağında 2 monitor, 2 rəqəmsal teleradio və 4 FM radioverici qurulub. Bunlar teleradio yayımını mütəmadi izləməyə imkan verir. Eyni zamanda yaranmış hər hansı nasazlıq barədə operator dərhal məlumatlandırılır.

Bina ikitərəfli elektrik xətti ilə təchiz edilib. İki generator quraşdırılıb, 430 metr yüksəkgərginlikli kabel, 2600 metr hava elektrik xətti çəkilib, 250 və 160 kilovoltluq transformator yarımstansiyası yaradılıb. 150 metrlik qüllədə mobil rabitə baza stansiyalarının, televiziya və radiovericilərin şüalandırıcıları, anten-fider sistemləri qurulub, radiorele antenlərinin qəbuledici-verici çanaq antenləri montaj edilib.

Verilişlər Duzdağdan qəbul olunaraq rayonun Həmzəli, Axura, Köhnə Havuş, Aşağı Yaycı, Şahbulaq kəndlərindəki qəbuledicilərə ötürülür. Həmin yaşayış məntəqələrindən isə rayondakı digər kəndlərə yayımın gücləndirilməsi təmin olunur.

Vüsal Həsənov açılış mərasimində Ali Məclis Sədrinin kollektivə tövsiyələrini xatırlatdı. Bildirdi ki, biz də bir kollektiv olaraq həmin tövsiyələri əldə rəhbər tutaraq yaradılan şəraitdən səmərəli istifadə edəcək, avadanlıqlara vaxtında texniki qulluq göstərəcək, ərazidə radio və televiziya verilişlərinin yayımının nümunəvi təşkil olunmasına çalışacağıq.

**✍ Muxtar MƏMMƏDOV**

## Yüz yaşı tamam olan sakinlə görüş keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilən islahatların davamlılığını təmin edib.

Hazırda muxtar respublikada yaşlı nəslin nümayəndələrinə dövlətimiz tərəfindən xüsusi diqqət göstərilir. Muxtar respublikada yaşı yüz və yüzdən yuxarı olan ahıl vətəndaşlarla görüşlər keçirilir, onlar dövlət tərəfindən xüsusi qayğı ilə əhatə olunurlar.

Növbəti belə görüş Şərur rayonunun Qorçulu kəndinin 100 yaşlı sakini Fərman Sadıqovla keçirilib. Qeyd edək ki, 1941-1945-ci illər müharibəsinin iştirakçısı kimi hərtərəfli dövlət qayğısı ilə əhatə olunan Fərman Sadiqov, 2013-cü ildə dövlət tərəfindən "NAZ Lifan" markalı avtomobillə də təmin edilib.

Tədbirdə çıxış edən Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova vurğulayıblar ki, ahılların sosial müdafiəsi, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublikada ahıl vətəndaşlara mütəmadi olaraq tibbi və sosial reabilitasiya xidmətləri göstərilir.

Sonra yubilyara hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Yeni nəşrlər*

## Naxçıvan folkloru janrlarının ənənəvi poetikasına fərqli baxış




AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı Nazirə Əsgərovanın bu günlərdə işıq üzü görən "Folklorun poetik özünəməxsusluğu: mühit, janr, ənənə" adlı kitabı öz dəyəri və elmi yeniliyi ilə seçilir. Filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədovun və bu sətirlərin müəllifinin elmi redaktorluğu ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunan kitabı dəyərli edən amillərdən biri onun folklorun müxtəlif janrlarına həsr olunmasıdır.

Tədqiqatçının topladığı folklor materialları üçcildlik "Naxçıvan folkloru antologiyası" kitabında yer alıb. O topladığı materiallar əsasında apardığı tədqiqatların nəticəsi olan elmi məqalələrini müxtəlif xarici və ölkədaxili elmi jurnallarda nəşr etdirib.

Bu kitabda Nazirə Əsgərovanın folklor janrları ilə bağlı apardığı 100-ə yaxın elmi tədqiqatının bir qismi toplanıb.

Kitabın əvvəlində görkəmli folklorşünas alim Məmmədhüseyn Təhmasiblə bağlı məqalə yer alıb. Bu da tədqiqatçının folklorşünasların yaradıcılıqları ilə maraqlanmasının, onların elmi irslərinə yaxından bələd olmasının göstəricisidir.

Yeni nəşrdə dastanlarla bağlı bir neçə məqalə də yer alıb. Bu yazılarda Nazirə Əsgərova məhəbbət dastanlarında butavermə və dastanların variantlılıq məsələlərini də araşdırıb, xeyli sayda nümunələr göstərməklə elmi nəticələr əldə edib.

Müəllif, həmçinin lətifələrin, atalar sözləri və məsəllərin bədii-məzmun xüsusiyyətlərini, bayatıların poetik özəlliklərini tədqiq etməklə bir sıra təhlillər aparıb və müxtəlif elmi qənaətlər ortaya qoyub.

Qeyd edək ki, kitabda daha çox Nazirə Əsgərovanın özünün elmi-tədqiqat sahəsi olan Naxçıvan nağılları yer alır. Nağıllar aləminə səyahət edən tədqiqatçı bu janra müxtəlif aspektlərdən yanaşıb, bir sıra müqayisəli təhlillər aparıb ki, bu təhlillər də bir çox qaranlıq məqamlara aydınlıq gətirir. Tədqiqatçı, əsasən, uşaqların maraq dairəsi olan sehrli nağıllara önəm verib, sehrli qüvvələri, uçan xalça, sehrli alma, papaq, atlar, tütək, əfsanəvi quşları və sair obrazları araşdırıb.

Bildiyimiz kimi, istər dastanlarda, istər nağıllarda, istərsə də digər janrlarda ailə və əxlaq məsələləri önəmli yer tutur. Məhz bu baxımdan da müəllif həmin mövzuya fərqli yanaşmaqla müxtəlif təhlillər aparıb və sonda maraqlı nəticələr əldə edib.

Yeni nəşr Naxçıvan folklor mühitinin öyrənilməsində deyil, eləcə də Azərbaycanın digər bölgələrinin, həmçinin türk xalqlarının folkloru ilə bağlı tədqiqatlar apararkən müqayisəli təhlillər və tədqiqlər zamanı mühüm mənbəyə çevriləcəkdir.

**Çinarə RZAYEVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## *"Dahinin gəncliyi"* filmi maraqla qarşılanıb

***Dünən "Gənclik" Mərkəzində "İslam filmləri həftəsi"ndə 1982-ci ildə Özbəkistan və Tacikistan kinematoqraflarının birgə istehsalı olan "Dahinin gəncliyi" filmi tamaşaçılara göstərilmişdir.***

İslam aləminin dünya elminə verdiyi böyük alim, filosof, həkim Əbu Əli ibn Sinanın uşaqlıq və gənclik illərindən bəhs edən bu bədii filmin rejissoru və ssenari müəllifi Elyor İşmühəmmədovdur.

Filmin baş qəhrəmanı əsl adı Əbu Əli Hüseyn ibn Abdullah olan dahi şəxsiyyət Buxara şəhəri yaxınlığında Əfşanak kəndində dünyaya göz açıb. Filmdə dünya elminə və fəlsəfəsinə böyük töhfələr vermiş alimin fitri istedada sahib olmasından, romantik və coşqun həyatından lövhələr ekrana gətirilmişdir. Bu böyük elm xadiminin 250-dən çox əsəri dövrümüzə gəlib çatmışdır.

Qeyd edək ki, film 1984-cü ildə Sovet İttifaqında Dövlət mükafatına layiq görülmüşdür.

Film tamaşaçılar tərəfindən maraqla qarşılanmışdır.

Bu gün isə "İslam filmləri həftəsi" türk rejissoru Cağan İrmakın çəkdiyi "Ulak" (2008) filminin nümayişi ilə davam edəcəkdir.

**Əli RZAYEV**

*Naxçıvan Şəhər Təsərrüfat-hesablı Nəqliyyat İdarəsində əhaliyə sərnişindaşıma xidməti göstərən sürücülərin iştirakı ilə növbəti seminar-müşavirə keçirilib.*

## Sürücülər üçün seminar-müşavirə



Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətinin əməkdaşları Elxan Novruzov, Zaur Əliyev və idarənin əməkdaşı İman Adıgözəlov çıxış ediblər.

Bildirilib ki, seminar-müşavirənin keçirilməsində məqsəd payız-qış mövsümünə hazırlığın gedişi, qarşıdan gələn aylarda avtomobil nəqliyyatı sahəsində xidmətin intensivliyinin təmin olunması, yaranmış çətinliklərin aradan qaldırılması yollarının müəyyən edilməsidir.

Qeyd olunub ki, hazırlıq tədbirləri çərçivəsində Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə muxtar respublikada sərnişindaşıma fəaliyyəti göstərən avtobus və mikroavtobusların texniki müayinəsi keçirilib, avtomobillərdə müəyyən olunan nasazlıqların aradan qaldırılması üçün sürücülərə vaxt verilib, 13 avtomobil isə əsaslı təmirə dayandırılıb.

Vurğulanıb ki, ötən müddət ərzində xidmətin əməkdaşları tərəfindən mütəmadi olaraq avtobusların təmizliyinə, sərnişindaşıma ilə məşğul olan sürücülərin geyim formasına və hərəkət qrafikinə nəzarət edilib, eyni zamanda Naxçıvan şəhərində əlamətdar günlərdə, xüsusilə axşam saatlarında şəhərdaxili marşrutların işinin daha da səmərəli qurulması, avtobusların marşrut qrafiki üzrə hərəkət etmələrinə diqqət artırılıb.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Növbəti təqaüd proqramına start verilib



***"Azercell Telekom" Məhdud Məsuliyyətli Cəmiyyəti yeni tədris ilinin başlanması ilə əlaqədar tələbələr üçün növbəti təqaüd proqramına start verib. Bununla bağlı Naxçıvan Dövlət Universitetində təşkil olunan görüşdə şirkətin İnsan resursları departamentinin nümayəndələri proqramın mahiyyətini və ondan bəhrələnməyin yollarını izah ediblər.***

Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Rafiq Rəhimov belə görüşlərin keçirilməsinin əhəmiyyətindən danışıb.

Təqaüd proqramı haqqında ətraflı məlumat verən "Azercell"in əməkdaşları bildiriblər ki, bu proqramı həyata keçirməkdə əsas məqsəd təhsildə müvəffəqiyyət əldə edən yüksək potensiallı tələbələrə qayğı göstərmək, onların gələcəkdə peşəkar mütəxəssis kimi formalaşmasına dəstək verməkdən ibarətdir.

Vurğulanıb ki, proqramın bütün seçim mərhələlərini uğurla keçən tələbələr cari təhsil müddətinin sonuna qədər şirkət tərəfindən 200 manat məbləğində aylıq təqaüd alacaq. Eyni zamanda gənclər proqram çərçivəsində informasiya-kommunikasiya texnologiyaları sahəsindəki biliklərini artırmaq, şirkətin korporativ tədbirlərində və sosial fəaliyyətində iştirak etmək, müxtəlif təlimlərə qoşulmaq və şirkətdə təcrübə keçmək imkanı əldə edə biləcəklər.

Qeyd edilib ki, 2008-ci ildən bu günə kimi ölkəmizin müxtəlif universitetlərində təhsil alan 156-dan çox tələbə şirkətin fəxri təqaüdçüsü adına layiq görülüb. Tələbə təqaüdü proqramı 3 istiqamətdə həyata keçirilir. Müsabiqəyə müraciət etmək üçün tələbələr şirkətin rəsmi internet səhifəsinə (*www.azercell.jobs*) daxil olub qeydiyyatdan keçməlidirlər. Ərizələr bir ay müddətində yalnız onlayn formada qəbul edilir. Təqaüd proqramının sonunda isə tələbələrə sertifikatlar veriləcək.

Sonda tələbələrin sualları cavablandırılıb, fəal tələbələrə "Azercell"in əməkdaşları tərəfindən hədiyyələr verilib. Tədbirdə təqaüd proqramına qoşulmaq qaydalarını əks etdirən videoçarx nümayiş etdirilib.

**Badəm MƏMMƏDOVA**

## Yeni müsabiqə keçiriləcək

Naxçıvan şəhərinin 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Gənclər Paytaxtının ən yaxşı tələbə-gənclər təşkilatı" müsabiqəsi keçiriləcəkdir. Məqsəd Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən tələbə-gənclər təşkilatları ilə işin canlandırılmasından, təşkilatlar və onların üzvləri arasında rəqabətin formalaşdırılmasından, muxtar respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə tələbə-gənclərin iştiraklarının təmin olunmasında təşkilat sədrlərinin fəallığının artırılmasına stimul verməkdən ibarətdir. Müsabiqə dörd nominasiya üzrə keçiriləcək:

-*"Vətənpərvər" qısametrajlı film çəkilişi;*

-*"On/Off" video çəkilişi;*

-*"Azərbaycan gəncliyinə doğan Günəş" mövzusunda məqalə yazma;*

-*"Təbiətsevər". Muxtar respublikadakı gənclər bağlarında ayrılmış ərazilərə nümunəvi aqrotexniki qulluq.*




Yarışmalar tələbə-gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin təmin olunmasına, onlarda bu hisslərin yüksəldilməsinə, yaradıcılıq qabiliyyətlərinin üzə çıxarılmasına, Naxçıvanın turizm imkanlarının tanıdılmasında gənclərin yaradıcılıq potensialından istifadəyə, həmçinin tələbə-gənclərin ətraf mühit haqqında məlumatlarının və ona qayğısının artırılmasına xidmət edir.

Yarışmalarda iştirak edəcək gənclər tələbə-gənclər təşkilatları sədrləri tərəfindən müəyyənləşdiriləcəkdir. Müsabiqə zamanı təşkilat sədrlərinin əsas vəzifəsi tələbələrin həmin yarışmalarda iştirakını təmin etməkdir. Müsabiqədə iştirak etmək istəyənlər təhsil aldıqları müəssisələrin tələbə-gənclər təşkilatları sədrlərinə müraciət edə bilərlər.

Yarışmalarda ümumi nəticələr nəzərə alınaraq I, II və III yerlərə layiq görülən tələbə-gənclər təşkilatları müəyyənləşdiriləcəkdir.

## Şahmat üzrə birinciliklər təşkil olunub



*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının kuboku uğrunda şahmat üzrə Naxçıvan şəhər birinciliyinə start verilib.*

Naxçıvan Şahmat Mərkəzində keçirilən birincilikdə 60 oğlan və qız mübarizə aparır. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Uşaq-Gənclər Şahmat Məktəbinin birgə təşkil etdiyi yarış üç gün davam edəcək.

Qalib gələn şahmatçılara muxtar respublika mərhələsində iştirak etmək üçün sertifikatlar təqdim ediləcək.

Analoji tədbir Şərur rayonunda da keçirilib. Belə ki, rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Şahmat Federasiyasının Şərur bölməsinin birgə təşkilatçılığı ilə məktəblilər arasında rayon birinciliyinə yekun vurulub. Yarışda 16 məktəbdən 50-dən artıq şagird iştirak edib.

Komanda xarakteri daşıyan birinciliyin qalibi Ələkli kənd tam orta məktəbinin komandası olub. Aralıq kənd tam orta məktəbinin komandası ikinci, Çərçiboğan kənd tam orta məktəbinin komandası isə üçüncü olub.

Qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

## İntellektual oyunda *"Günnüt"* komandası qalib gəlib

*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində keçirilən yeniyetmələr arasında "Xəmsə" milli intellektual oyununun Naxçıvan şəhər birinciliyinə yekun vurulub.*

Oyunun keçirilməsində məqsəd zəngin milli mədəniyyətimizin və tariximizin təbliğindən, yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü formalaşdırmaqdan, zehni inkişafını stimullaşdırmaqdan, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.



İntellektual oyunda 8 komanda iştirak edib. 2 yarımfinal və final mərhələsindən ibarət olan oyunda qalib adını "Günnüt" komandası qazanıb. Digər iki pillədə "Qafqaz" və "Mübariz" komandaları qərarlaşıblar.

Qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman və bilik yarışması kitabları ilə mükafatlandırılıblar.

Qeyd edək ki, birincilik Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

*Replika*

## Məktəbli ləvazimatları övladlarımıza nəyi təbliğ edir?

*Yeni tədris dövrü başlar-başlamaz məktəbli övladları olan valideynlərin qayğıları da artır. Bu səbəbdəndir ki dükan-bazarlarda dərs ləvazimatlarını xüsusi diqqətlə seçib alan valideynlərlə tez-tez qarşılaşırıq. Elə oxucularımız arasında da, yəqin, çox sayda valideyn vardır ki, məktəbli ləvazimatları alırlar.*

Ötən günlərdə şəhərimizdə fəaliyyət göstərən mağazaların bir neçəsində müşahidə apararkən məktəbli ləvazimatlarının əksəriyyətinin üzərində nümayiş olunan cizgilər diqqətimizi çəkdi. Görünən o idi ki, bu gün televiziya ekranlarından balacaların dünyasına hakim kəsilən "Ben 10", "Maşınlar", "Şirinlər", "Maşa və ayı", "Hörümçək adam" kimi xarici cizgi filmlərinin qəhrəmanları indi də dərs ləvazimatları vasitəsilə onların "görüşünə gəlib". Bu halları görərkən fikirləşirsən ki, niyə mədəniyyətimizi yaşadacaq, uşaqları gələcəyə hazırlayacaq, onlara nümunə olacaq milli cizgi filmlərimizin qəhrəmanları qalıb kənarda, belə xoşagəlməz obrazlar burada özünə yer tapıb? Bəs bunun səbəbləri haradan qaynaqlanır?

Araşdırmalarımız zamanı məlum oldu ki, məktəbli ləvazimatlarını sifariş verən tacirlər bu məsələyə o qədər də diqqət yetirmirlər. Nəticədə, çanta və dəftərlərin üzərindən



bizə yabançı olan cizgi film qəhrəmanlarının fotoları boy göstərir.

Bununla bağlı olaraq Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının müdiri, Azərbaycan Respublikasının Əməkdar müəllimi Sevinc Orucovaya müraciət etdik. O dedi:

– Adıçəkilən məsələ, ilk olaraq bir valideyn kimi məni çox narahat edir. Övladıma, əsasən, sadə məktəbli ləvazimatı alsam da, seçim imkanı az olduğu üçün yad cizgilərin əks olunduğu məhsullara da müraciət etmək məcburiyyətində qalıram. Xatırlatmaq yerinə düşər ki, bu gün televiziya ekranlarından uşaqların hafizəsinə yeridilən yad ünsürlər onların danışıq qabiliyyətlərinə, şəxsiyyət kimi formalaşmalarına, eyni zamanda davranışlarına mənfi təsir göstərir.



Xarici cizgi film qəhrəmanlarının əks olunduğu ləvazimatlardan istifadə edən uşaqda da istər-istəməz fikir dağınıqlığı, davranış pozğunluğu kimi mənfi hallar yaranır. Nəticədə, təlim-tərbiyə prosesində şagirdin müvəffəqiyyət faizi aşağı düşür. Xüsusən də məktəbyaşlı uşağın inkişaf dövrüdürsə, onda məsələ daha da mürəkkəbləşir. Fikrimcə, milliliyimizi əks etdirən ləvazimatlar satışda olsa, yuxarıda qeyd olunan xoşagəlməz hallar yaşanmaz.





Məsələ ilə bağlı valideynlərin də fikirlərini öyrəndik. Həmsöhbət olduğumuz valideynlərdən Solmaz Cabbarova, Taleh Xəlilov, Nəzakət Yusifova və Aynurə Əliyeva bildirdilər ki, onlar da çanta və digər məktəbli ləvazimatlarının seçimində bu məsələyə diqqət yetirsələr də, problemin həlli yolunu heç cür tapa bilməyiblər. Seçim imkanlarının məhdudiyyəti səbəbindən məcburiyyət qarşısında qalıb bu cür məhsulları alırlar.

Gəlin övladlarımızı mənfi təsiri olan yad ünsürlərdən, onlara xoşagəlməz hallar aşılayan vasitələrdən uzaq saxlayaq. Məktəbli ləvazimatlarında milliliyimizlə bağlı əkslərə yer verilsə, uşaqların tərbiyəsi, əxlaqı düzgün formalaşar, dərslərə marağı artar.

**✍ Nail ƏSGƏROV**


**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 705